# ODLAR YURDU UNİVERSİTETİ

**Bakalavr, Magistr və MBA Proqramları üzrə**
**Tələbələrin Biliklərinin Qiymətləndirilməsinə dair edilən dəyişikliklər barədə**
**məlumat.**

22 dekabr 2025-ci il Elmi Şuranın 04 saylı iclas qərarı ilə

## 1. Tətbiq Sahəsi

Bu dəyişikliklər seminar (məşğələ), aralıq imtahanı və yekun imtahan nəticələrinin formalaşdırılması qaydalarını əhatə edir.

## 2. Qiymətləndirmə Sistemi

Bakalavr və magistr proqramlarında fənn üzrə maksimal 100 bal aşağıdakı bölgü əsasında formalaşır:
- Seminar (məşğələ): 0–20 bal
- Aralıq imtahanı: 0–30 bal
- Yekun imtahan: 0–50 bal

MBA proqramında isə maksimal 100 bal aralıq imtahanı (0–50 bal) və yekun imtahan (0–50 bal) üzrə müəyyən edilir.

## 3. Seminar (Məşğələ) üzrə Qiymətləndirmə

Seminar dərslərində tələbələrin hazırlıq səviyyəsi müəllim tərəfindən şifahi cavab, tapşırıq, case, təqdimat və digər qiymətləndirmə vasitələri ilə müəyyən edilir. Əyani təhsil alan tələbələr semestr ərzində minimum üç dəfə, qiyabi təhsil alan tələbələr isə minimum bir dəfə məşğələ dərslərində cavab verməlidirlər. Bu şərt yerinə yetirilmədikdə seminar üzrə bal sıfır hesab olunur.

- **Hesablanma düsturu**

$$\text{Ümumi seminar balı} = \frac{\text{Toplanmış balların cəmi}}{\text{Cavabların sayı}} \text{ x } 2$$

$$\text{Ümumi seminar balı} = \frac{8 + 6 + 7}{3} \text{ x } 2 = 14$$

$$\text{Ümumi seminar balı} = \frac{7 + 9 + 10 + 6}{4} \text{ x } 2 = 16$$

**Göstərilən düstur üzrə nəticə tam ədədlə ifadə olunmadıqda yuvarlaqlaşdırma riyazi düstura əsasən həyata keçirilir.**

$$\text{Ümumi seminar balı} = \frac{7 + 5 + 10}{3} \times 2 = 14{,}6 \approx 15$$

$$\text{Ümumi seminar balı} = \frac{7 + 5 + 10 + 9}{4} \times 2 = 15{,}4 \approx 15$$

**4. Aralıq İmtahanı**

Əyani təhsil forması üzrə aralıq imtahanları bir qayda olaraq, tədris semestrinin 10–11-ci həftələrində keçirilir. Qiyabi təhsil forması üzrə aralıq imtahanları isə dərs müddəti ərzində təşkil olunur. Aralıq imtahanı biletləri adətən beş sualdan ibarət olur və qiymətləndirmə proqram pilləsinə uyğun aparılır.

**5. Nəticələrin elanı və apellyasiya**

Aralıq imtahanlarının nəticələri imtahan başa çatdıqdan sonra üç iş günü ərzində elan edilir. Tələbələr nəticələrlə razılaşmadıqları halda elan tarixindən etibarən üç iş günü müddətində apellyasiya müraciəti edə bilərlər.

**6. Yekun İmtahana Buraxılma Şərtləri**

Tələbə üzrsüz səbəbdən dərslərin 10 faizindən, üzrlü səbəbdən isə 15 faizindən (ümumi 25%) çoxunda iştirak etmədikdə yekun imtahana buraxılmır.
Məsələn: dərs 30 saat (2 kredit)

10% = 3 saat = 2 dərs üzrsüz hesab olunur.
15% = 45 saat = 3 dərs üzrlü olmalıdı.
Üzrlüyə aiddir: tibbi arayış və öncədən yazılmış ərizə. Ərizədə fakültə dekanının və aparat rəhbərinin vizaları tələb olunur.